AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 121-135



# Qarabağ-Şuşa ədəbi-mədəni mühiti – uzaq keçmişdən bu günümüzə qədər

***Qurban Bayramov***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan. E-mail: qurban.bayramov@inbox.ru

Ədəbi-mədəni mühitin formalaşmasında və eyni zamanda regional bədii fikrin inkişafında mühüm əhəmiyyət kəsb edən problemlərdən biri də lokal coğrafi ərazidə ədəbi mühitin öyrənilməsidir. Bu istiqamətdə aparılan araşdırmalarda ədəbi-mədəni mühitin ictimai-siyasi düşüncədə, ədəbi-nəzəri fikirdə tutduğu yeri müəyyənləşdirmək və bunu tədrisdə aşılamaq mühüm amil hesab edilir. Dünya xalqları ədəbiyyatında olduğu kimi, Azərbaycan klassiklərinin yaradıcılığını da, ədəbi mühitlərsiz təsəvvür etmək mümkün deyildir və bu kontekstdə Qarabağ ədəbi mühitinin öyrənilməsi, tədqiqi olduqca vacib və aktualdır.

Azərbaycan həm Şərqin, həm də dünyanın ən zəngin ədəbi-bədii sərvətinə sahibdir. Bu qüdrətli sərvət öz başlanğıcını, əlbəttə ki, qədim tarixə malik xalq təfəkküründən, xalq yaradıcılığından alır. Qarabağ ədəbi mühiti öz başlanğıcını, məhz bu zəngin mənbədən götürmüşdür. Belə ki, Azərbaycan bədii xalq yaradıcılığının ən mühüm, zəngin, orijinal qollarından birini də Qarabağ folkloru təşkil edir.

Qarabağ ərazisi tarixi hadisələrin gedişatından asılı olaraq zaman-zaman dəyişsə də, Qarabağ ərazisi Araz və Kür qovuşandan (iki çayarası) Xuan qalasınadək, indiki Qırmızı körpü ətrafından Cermuxa qədər, Göyçə gölü sərhədlərində, o biri yandan isə Sisakan, Gorus, Mehri-Zəngəzur dağ silsiləsi boyunca Qarabağa daxil olmuş, qədim Aran-Arsaq ərazilərini əhatə etmişdir.

Eramızın birinci minilliyindən Qarabağ ərazisində Gəncə, Bərdə, Şəmkir, Beyləqan, Qarabağ kimi böyük şəhərlərin olmasını nəzərə alsaq, onda bu şəhər mədəniyyətinin, ədəbiyyatının möhtəşəmliyi və qədimliyi təsəvvürə gəlir.

Azərbaycanın hər yerində olduğu kimi, Qarabağ ərazisində də ilk ədəbi nümunələri el şairləri yaratmış və bu, öz əksini folklor janrlarında tapmışdır.

Azərbaycan türk-oğuz folklorunun elə janrları var ki, Qarabağ regionu ilə bağlıdır. "Dədə Qorqud" dastanına diqqət yetirdikdə açıq-aydın görünür ki, boylardakı hadisələrin əksər hissələri Qarabağ ərazisində baş vermiş və dastanda adı çəkilən yer adlarının – toponimlərin bir qismi tarixən də, indinin özündə də, Qarabağda olmuşdur. Tədqiqatlar sübut edir ki, Dədə Qorqud yaradıcı şəxsiyyətinin Qarabağ ərazisi ilə sıx əlaqəsi olmuşdur. Qarabağ ədəbiyyatının qədim köklərə malik olduğunu bu ədəbi abidə də sübut edir. Belə ki, sonrakı mərhələdə, xüsusən, Qarabağ-Şuşa ədəbi mühiti bu təməl üzərində formalaşmışdır.

Şuşa Azərbaycanın dilbər guşələrindən biri, tariximizin bizə əmanətidir. 18-ci yüzillikdə Azərbaycanda yaranan xanlıqlardan biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığının (1847) banisi Pənahəli xan Cavanşir Sarıcalı (1693-1763) olmuşdur. Azərbaycanın qüdrətdən qalalı, sıldırımlarla əhatələnmiş bir yaylasında yeni qala üçün yer seçilmiş və 1750-ci ildə onun bünövrəsi qoyulmuşdur. Xan qalaya öz adını verərək buranı "Pənahabad" adlandırmışdı. Sonradan şəhərə Şişə-Şuşa da deyildi və bu cür də adlandırıldı. Şuşa haqqında yaranan şifahi və klassik poeziya nümunələrində şəhərin adı Şişə kimi vəsf edilir: "Misli yoxdur Şişənin", "Şişədir cənnət mənə", "Cənnətdir Şişənin İsa bulağı", "Pənahabad olan Şişəm, səni kim eylədi bərbad", "Şişənin vardır gözəl, ahu baxışlı qızları". Bunlar da səbəbsiz deyildir. Şuşa, əslində, şiş qayaları ilə diqqət çəkən dağların əhatəsində yerləşdiyindən bu adın etimoloji mənası da buradan nəşət edib.

Qarabağ ədəbi mühitinin ən qüdrətli nümayəndələrindən biri, Azərbaycan ədəbiyyatı tarixinin yaradıcısı, görkəmli ədəbiyyatşünas, əvəzsiz pedaqoq Firidun bəy Köçərli bu mühiti xarakterizə edərək yazır: "Şuşa şəhərinin ab-havasının təsirindən və torpağının bərəkətindən burada çox zürəfa, üdəba və şüəra vücuda gəlibdir. Belə ki, Şuşa qalası Zaqafqaziyanın Şirazı mənziləsində olub, ərbabi-zövqi səfa olmağı və əhli-hal və sahibi-dil yatağı hesab olunur" [Köçərli F. Azərbaycan ədəbiyyatı: 2 clddə, I c. 1978, s.157].

Şuşa – Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də görkəmli və istedadlı şəxsiyyətlərin, sənətkarların, yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir. Şuşa Azərbaycan mədəniyyətinə Mir Möhsün Nəvvab kimi musiqişünas, Cabbar Qaryağdıoğlu, Xarrat Qulu, Sadıqcan, Məşədi İsi, Hacı Hüsü, Keçəçi

Məmməd, İslam Abdullayev, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Sara Qədimova, Şövkət Ələkbərova, Arif Məmmədov, Qədir Rüstəmov, Nəzakət Teymurova kimi xanəndələr, Bülbül, Rəşid Behbudov kimi dünya şöhrətli vokalistlər, Üzeyir Hacıbəyov kimi dahi bəstəkar, yazıçı, dramaturq, publisist, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov kimi istedadlı bəstəkarlar bəxş etmişdir.

Şuşadan kimlər keçməyib – dost da, düşmən də, səyyah da, musiqişünas da, etnoqraf da. Hər kəs öz qəlbinin gözü ilə bu şəhərə göz yetirib, qiymət verib. Musiqi və poeziya beşiyi adlanan bu qeyri-adi şəhərdə demək olar ki, Azərbaycanın ən məşhur mədəniyyət xadimləri yaşayıb yaradıblar. XVIII əsrdə Şuşa şəhərində Molla Pənah Vaqif kimi bir şeir tacidarı olub. Burada Qasım bəy Zakir yaşayıb yaradıb, Xan qızı Natəvanın şeir məclisləri dillər əzbərinə çevrilib.

Azərbaycan Respublikası Prezidentinin "Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında" 9 aprel 2012-ci il tarixli Sərəncamında deyilir:

"Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır".

Şuşa Qarabağın rəsmi, Azərbaycanın isə mənəvi-mədəni paytaxtı olmuşdur. Şuşanı Azərbaycanın konservatoriyası adlandırmışlar. Ulu öndər Heydər Əliyev demişdir: "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!". Ulu öndərin bu vəsiyyətini Azərbycan Respublikasının Prezidenti, Müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyev böyük və əvəzsiz tarixi qələbə ilə yerinə yetirdi, Qarabağı və onun paytaxtı Şuşa şəhərini – Pənahabadı erməni vandallarının işğalından 2020-ci il noyabr ayının 8-də azad etdi və Azərbaycan bayrağını Şuşada dalğalandırdı.

XVIII əsr coşqun Şuşa-Qarabağ ədəbi-mədəni mühitinin tarixi kökləri çox qədimlərə gedib çıxır. Şuşa ədəbi mühiti ən qədim Qarabağ ədəbi mühitinin bulağından su içib pərvəriş tapmışdır.

Qarabağ tarix boyu bütün Şərqdə məşhur olan şairlərin, filosofların, din xadimlərinin, dövlət adamlarının vətəni olub. Elə bir əsr, elə bir qərinə yoxdur ki, onlarca qarabağlının adı böyük hərflərlə bu tarixə yazılmasın. Həmin adamların səsi-sorağı indi də yüzilliklərin o tayından gəlir, onların xeyirxah əməlləri, insanpərvərlikləri dillərdən düşmür, ağızdan-ağıza, arxivdən-arxivə keçir, tarixə çevrilir. Bu şəxsiyyətlərin əməlləri, gördükləri işlər irsən babalardan oğullara, oğullardan nəvələrə keçir və həmişəlik tarixin yaddaşına həkk olur.

V əsrdən etibarən Azərbaycanın Şimal-Qarabağ hissəsi möhtəşəm Alban dövlətinin ictimai, iqtisadi və mədəni həyatında çox mühüm tərəqqi mənbəyi olması nəzəri cəlb edir. Azərbaycan mədəniyyətinin həmin dövrdə yaranmış bəzi yadigarları günümüzə qədər gəlib çatmışdır. Onlardan biri də VII əsrdə yaşamış Azərbaycan (Qafqaz Albaniyası) şairi, Bərdəli Dəvdəkin Alban hökmdarı Cavanşir Mehraninin Alban dövlətinin paytaxtı Bərdə şəhərində düşmən fitvası ilə qətlinə həsr etdiyi elegiyadır (mərsiyə). Dəvdəkin "Şərq ölkəsinin kədəri" adlı mərsiyyəsi onun dövrümüzə gəlib çatan yeganə əsəridir. Beləliklə, Dəvdək hələlik VII əsrdə məlum olan yeganə qarabağlı şairdir.

Dəvdəkin doğum yeri və tarixi dəqiq bəlli olmasa da, bəzi ehtimallara görə, o, Qarabağın qədim mərkəzi sayılan Bərdədə (Partavda) yaşayıb. Dəvdək adı qədim türk sözləri "dev" (div)+"tau"(dağ) vasitəsilə əmələ gəldiyini ehtimal etmək olar. Güclü, qüdrətli mənasındadır. Bu söz indi də el arasında "Filankəs mənə dov (güc, qalib mənalarında) gəldi!" şəklində işlənir.

Dəvdək Azərbaycan xalqının istiqlaliyyətini qoruyan, işğalçılara qarşı müqavimət göstərən alban hökmdarı Cavanşirin müasiri, dostu və məsləhətçisi olmuş, onun xəlifə Müaviyə ilə görüşlərində iştirak etmişdir.

681-ci ildə "Cavanşir Bizanspərəst əhval-ruhiyyəli Aran knyazlarının gizli qəsdi nəticəsində öldürüldükdə" [Ziya Bünyadov] Dəvdək sərkərdənin tabutu önündə mərsiyə-poema oxumuşdur. Bu əsərində o, böyük vətənpərvər kimi xalqın dərin kədərini ifadə etmişdir. Dəvdəkin "Şərq ölkəsinin kədəri" adlı şeiri qədim yunan poeziyası üslubunda yazmış olduğu akrostix (misraları əlifbanın hərfləri ilə başlanan şeir şəkli) elegiyadır (mərsiyə) və onun dövrümüzə gəlib çatan yeganə əsəridir.

Ümumiyyətlə, VII əsrdə yaradılmış zəngin ədəbiyyatdan bizə gəlib çatanı "Alban tarixi"nə daxil edilmiş bir neçə hekayə, nağıl və Dəvdəkin yuxarıda adı çəkilən qəsidəsidir. Təxminən 140 misradan ibarət olan bu qəsidə – ağı, akademik H.Araslının dediyi kimi, "yüksək qəsidə – mədhiyyə ünsürləri ilə lirik-mərsiyə ünsürlərini" özündə cəmləşdirmişdir. Qəsidənin məzmunundan aydın olur ki, onun müəllifi ellin və İran ədəbiyyatı ilə yaxından tanış olan və Ön Asiyanın qədim tarixini

mükəmməl bilən bir şairdir. Qəsidə struktur etibarı ilə qədim yunan, formaca isə Şərq poeziyasına məxsus akrostixlə yazılmışdır. Onun 1-ci bəndi "a" hərfi ilə başlanır, sonrakı bəndlərdə isə hərf ardıcıllığına riayət olunur. Təxminən 32-33 bənddən ibarət olan bu qəsidənin qədim yunan poeziyası üslubunda yazıldığı onun ilk misralarından aydın görünür.

Dəvdəkin həyatı və ədəbi yaradıcılığı haqqında çox az məlumat var. Onun müasiri məşhur Aran tarixçisi Musa Kalankatuklu yazır: "Dəvdək dövrünün bütün elmlərinə bələd müdrik filosof, gözəl natiq və ustad şair idi. Cavanşirin ölüm xəbərini eşidən şair hökmdarın cənazəsi önünə gəlib ona həsr etdiyi qəsidə – himnini əlifba sırası ilə oxumağa başladı". Musa həmin qəsidəni bütövlükdə "Alban tarixi" əsərinin II kitabına daxil etmişdir. "Alban tarixi" Dəvdəki xatırlayan və onun qəsidəsini bu günə qədər mühafizə edib saxlayan yeganə yazılı mənbədir. Lakin təəssüflə qeyd etməliyik ki, Dəvdəkin qəsidəsinin və "Alban tarixi"nin əsli əlimizdə yoxdur.

Dəvdəkin qəsidəsinin 17 bəndi ilk dəfə şair Mikayıl Rzaquluzadə tərəfindən rus dilindən tərcümə olunmuş və 4-5 bəndi o zaman "Azərbaycan ədəbiyyatı tarixi"nin 1-ci cildinə daxil edilmişdi. Bütövlükdə isə qəsidə 1971-ci ildə yazılmasının 1300 illiyində şair Xəlil Rza tərəfindən rus dilindən tərcümə olunmuş və "Ulduz" jurnalının 6-cı nömrəsində dərc edilmişdir [s.34-39]. Xəlil Rza həmin əsərin tərcüməsi üzərində uzun müddət işləmişdir. O, qəsidənin formasını, vəznini, məzmununu və ruhunu diqqətlə öyrəndikdən sonra tərcüməyə başlamışdır. Xəlil Rza qəsidənin rus dilində mövcud olan bütün tərcümələrini tutuşdurmuş və onları akademik Ziya Bünyadovun Azərbaycan SSR EA "Xəbərlər"ində çap etdirdiyi variantla bir daha yoxlamışdır [1961, № 4, səh.6-9]. Həmçinin, Xəlil Rza AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışarkən iş yoldaşı, qədim erməni dili qrabarı mükəmməl bilən professor Mirəli Seyidovla da məsləhətləşmiş, beləliklə də o, müəyyən mənada, əsəri elmi-tənqidi mətn əsasında tərcümə etmişdir.

Ümumiyyətlə, Azərbaycan-türk mədəniyyətində, əbədiyyatında bir sıra faktların ilkinliyi, ilk başlanğıcı, bünövrəsi etibarilə Qarabağ əbədi mühiti ilə bağlı olduğunu müşahidə edirik. Yazılı ədəbiyyatda hələlik elmə məlum olan ilk azərbaycanlı şair, qarabağlı söz ustadı, VII əsrdə yaşayıb-yaratmış Dəvdəkdir, ilk Qarabağ-Alban tarixçisi və Dəvdək haqqında məlumat verən də Bərdəli Musa Kalankatukludur (Kolanqatlı, VII əsr).

Sonrakı mərhələlərdə, yəni Pənahabad-Şuşa şəhərinin mövcudiyyətinə qədər ədəbiyyat tariximizdə xeyli "Bərdəilər", "Beyləqanilər", "Qarabağilər" olmuşdur.

X əsrdə yaşayıb-yaratmış, ərəb dilli Azərbaycan ədəbiyyatının yaradıcılarından olmuş Əbu Bəkir Əhraəd əl-Bərdəi, Məkki ibn Əhməd Bərdəi, Xətib Bağdadi

Məhəmməd Əl-Bərdəi, Əhməd ibn əl-Hüseyn Əbu Səid əl Bərdəi, Əbu Əli əl-Bərdəi, Səid ibn əl-Qasim əl Bərdəi, Əbu Səid ibn Yəhya əl-Bərdəi (faktlar M.Mahmudovun "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər" (VII-XII əsrlər) kitabından götürülmüşdür, B., Elm, 1983) təkcə Azərbaycanda deyil, bütün İslam dünyasında məşhur alimlərdən və dövrünün filosof şairlərindən olmuşlar. Hələ bu, yalnız X əsrin məlum faktlarındandır.

XII əsr Azərbaycan poeziyasının ən qüdrətli simalarından biri də qarabağlı Mücirəddin Beyləqani olmuşdur. Xosrov Dəhləvi onun sənətkarlığını Xaqani Şirvaninin sənətkarlığından üstün tutmuşdur. Zəld ibn Hüseyn ibn Ömər Beyləqani də Mücirəddinin müasiri olmuş, filosof kimi yüksək elmi səviyyəyə çatmış, Dəməşqə getmiş, orada bədii fikrin, fəlsəfi elmin aparıcısı kimi məşhurlaşmış, bir sıra yüksək səviyyəli bədii əsərlər yaratmışdır.

XIV əsrdə Tuti Abdulla Qarabaği adlı bir şair fəaliyyət göstərmişdir. Əsərlərindən hələlik əldə olmasa da, "Həqiqətüs-şüəra"da və başqa mənbələrdə çox ilhamlı, tanınmış şair kimi hörmətlə adı çəkilmişdir. Sədullah Bərdəi (XIV-XV əsrlər), Mihuyiddin Məhəmməd Bərdəi (? -1521) kimi şair və alimlərin də öz dövrlərinin tanınmış simalarından olduğu bildirilir.

XV əsrdə Qarabağlı Şeyx İbrahim ibn Məhəmməd Şəhabəddin Bərdəi dövrünün Şeyx tituluna yüksəlmiş, Gülşəni təxəllüsü ilə ədəbiyyat aləmində olduqca məşhur olmuşdur və Mövlanə Gülşəni mərtəbəsinə çataraq Qahirədə və Osmanlı imperiyasında öz təriqətini yaymışdır. Xanəgahı Qahirədədir və bu gün də fəaliyyətdədir. Mövlanə Gülşəninin iki oğlu – Şeyx Əhməd Gülşənizadə və Səfvəti Seyyid Əli Gülşəni də şair olmuşlar və atalarının ölümündən sonra onu əvəz etmişlər.

Yusif ibn Məhəmmədşahi Qarabaği XVI-XVII əsrlərdə yaşayıb-yaratmış, dövrünün görkəmli alimlərindən olmuş, Səmərqəndə Hüseyniyyə xanəgahına getmiş və Mövlanə Yusif təbəqəsinə yüksəlmişdir. Səmərqənddə indi də xanəgahı hörmətlə yad edilir.

İzzəddin (Mühyəddin) Məhəmmədəli oğlu Qarabaği (1635-ci ildə vəfat edib) XVI-XVII əsrlərdə yaşamış, İbn Sina məktəbinin davamçılarından olmuş filosofdur. Şərhlərdən ibarət məşhur fəlsəfi traktaktların müəllifidir.

XVI əsrdə yaşayıb-yaratmış, Şah İsmayıl Xətai sarayının doğmalarından olan, ustadlar ustadı Aşıq Qurbani öz dövrünün ən kamil ustad sənətkarı olmuşdur. Ümumiyyətlə, Qarabağ mühitində aşıqlığın XVI-XVIII əsrlərdə çiçəkləndiyi, dərin ürfani-estetik köklərə, xüsusən də təriqət ənənəsinə bağlılığı qeyd olunur.

Bütün bunlar tarixin saralmış, küləklərə sovrulmuş səhifələrindən günümüzə gəlib çatan, zənginliyi ilə qibtə doğuran mədəniyyətimizin qəlpələri, zərrələri,

cizgiləridir. Qarabağ ədəbi mühiti hər zaman Azərbaycan mədəniyyətinə və ədəbiyyatına yaxşı mənada fon vermiş, onun ən qüdrətli səhifələrini yaratmış, istiqamətləndirmişdir.

XVIII əsrdə isə Qarabağ xanlığının və onun paytaxtı Şuşa-Pənahabad şəhərinin yaranması ilə Qarabağ ədəbi-mədəni mühiti, demək olar ki, çiçəklənmə, intibah mərhələsinə daxil olmuşdur. XVIII-XIX əsr Qarabağ ədəbi mühiti ən yeni ideya-estetik, xətti, ədəbi-üslubi meylləri və zənginliyi ilə təkcə Azərbaycanda deyil, bütün türk dünyasında, eləcə də Şərq ədəbiyyatında ön mövqelərə çıxır.

Savadlı elm və sənət adamlarını saraya cəlb etmək Qarabağda hələ Pənahəli xan (1693-1758, xanlıq dövrü 1747-1758 ) dövründən bir qayda idi. Mirzə Vəli Baharlı, Molla Pənah Vaqif, Mirzə Camal Cavanşir kimi görkəmli şəxsiyyətlər müxtəlif vaxtlarda xan sarayına cəlb olunmuş və onlar öz fəaliyyətləri ilə Qarabağ xanlığının ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Bu ənənə xüsusilə İbrahimxəlil xanın (1732-1806, xanlıq dövrü 1758-1806) dövründə geniş vüsət almışdı. Uzaqgörən Qarabağ hakimi təkcə yerli adamları deyil, həm də Qafqazın və İranın müxtəlif şəhərlərindən ziyalı, mədəni, işbilən şəxsləri saraya dəvət edir, onların məsləhətlərindən bəhrələnir, istedadlarının inkişafına şərait yaradırdı.

“Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq öz fövqlərində poeziyaya ton verirdilər”. Böyük ədəbiyyatşünas və pedaqoq, ilk ədəbiyyat tarixçisi, şuşalı  Firidun bəy Köçərlinin qeyd etdiyi kimi Şuşa dağlarının bu poetik zirvəsində “məskan salan” bu şairlərin böyük ədəbi irsi ədəbiyyatımızı zənginləşdirmişdir.

Təkcə Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" toplusunda XIX əsrdə Qarabağdan çıxmış 100-dən çox şairin həyat və yaradıcılığı haqqında  məlumat verilmişdir. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuşdur.

XVIII əsrdə Mirmöhsün Ləmbərani Asəf, Aşıq Əli, Aşıq Valeh, Ziyadi Qarabaği və Molla Pənah Vaqifın adları çox mətləblərdən xəbər verir. Qarabağ ədəbi mühiti XVIII əsrdən başlayaraq Azərbaycan ədəbiyyatında ilk olaraq realist şeirin əsasını qoyaraq, XIX əsrdə realizm ədəbi metodunun yaranmasına və möhkəmlənməsinə, inkişafına səbəb olmuşdur.

İbrahimxəlil xanın qızı Ağabəyim ağa Tuti (Ağabacı adı ilə də tanınır) Şərqdə ən müdrik qadın kimi məşhurlaşdı və İran şahı Fətəli şah dövründə şahlıq diplomatiyasının ən fəal istiqamətverici şəxslərindən oldu. Onun məşhur bayatısının vətənpərvərlik ruhu bu gün də öz ecazkar gücü ilə səslənməkdədir:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

"Vətən bağı" al-əlvandır,
Yox içində xarı bülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı, sarı bülbül?!

Müasir dövrün məşhur filoloq-alimlərindən biri olan mərhum Yaşar Qarayev bu misraları Şuşanın işğal altında olduğu dövrlə əlaqələndirərək belə mənalandırmışdır:

Vətən bağı al-əlvandır,
Qan içində Xarıbülbül.

XVI-XVII yüzilliklər Azərbaycan ədəbiyyatında həm də orta əsr məhəbbət və qəhrəmanlıq dastanlarının formalaşması dövrü kimi tanınır. Füzulinin yazılı poeziyada əldə etdiyi uğuru, demək olar ki, eyni səviyyədə şifahi xalq yaradıcılığının Qurbani, Aşıq Abbas Tufarqanlı kimi nümayəndələrinin yaradıcılığında da görürük.

XVII əsrdə Pənahabad şəhərinin – Şuşanın bünövrəsi qoyulandan sonra Qarabağ ədəbi mühiti Azərbaycan ədəbi-mədəni mühitinin ən qaynar mərkəzinə çevrildi. Bu ona görə belə idi ki, Naxçıvan, İrəvan, Gəncə, Şəki və digər xanlıqların, Gürcüstanın siyasi-ictimai hadisələrinin istiqamətini də Qarabağ xanlığı müəyyənləşdirməyə başladı və aralarında sıx əlaqələr oldu. Bu əlaqələr, Qarabağ ədəbi mühitinin təsir dairəsini daha da genişləndirdi.

XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı şifahi xalq yaradıcılığının əsasən aşıq nümayəndələrinin əsərlərinin təsiri altında canlı həyata, xalq dilinə daha da yaxınlaşır. Məlumdur ki, Azərbaycan folklorunun mühüm janrlarından biri olan bayatı janrının vətəni də Qarabağ elləri olmuşdur. Bəlkə də, türk dünyasında ilk bayatı burada sərgilənmişdir, çəkilmişdir (bir bayatı çək ifadəsini yada sal) və elə ona görə də Azərbaycanın digər rayonlarına nisbətən Qarabağda bayatı janrı daha geniş şəkildə yayılmışdır. İraqda, Bağdad yaxınlığında Kərkük türklərinin əsil-nəsilləri,

soyları Bayat boyuna bağlı olduğundan, indinin özündə də, bayatı burada ən zəngin janrdır və Kərkük türklərinin bayatıları (xoyratlar) olduqca məşhurdur.

XVI əsrin və bütün zamanların dahi sənətkarı, əbədiyyət yolçusu Məhəmməd Füzulinin də əslən Bayat elindən olduğu ehtimal edilir.

XVII əsrin bayatı ustası da Qarabağın Güləbird kəndindən (Laçın rayonu) Sarı Aşıq olmuşdur. Bu dahi sənətkar haqqında ilk məlumatı Həsənəli xan Qaradaği vermişdir. Aşıq Laçın rayonunun Güləbird kəndinin yaxınlığında, Həkəri çayının sağ sahilində XVII-XIX əsrlərdə mövcud olan və hazırda xarabalıqları qalan Qaradağlı kəndində anadan olmuş, yaşamış və Qaradağlı kəndinin yaxınlığında hazırki Güləbird kəndinin ərazisində dəfn olunmuşdur. Sonralar, folklorşünas Əhliman Axundov, istedadlı şair Hüseyn Kürdoğlu, İlham Qəhrəman Sarı Aşıq haqqında mükəmməl tədqiqat aparmışlar [Hüseyn Kürdoğlu, "Sarı Aşıq", Bakı, "Sabah", 1993]. Sarı Aşığın həyatı ilə bağlı xalq arasında "Yaxşı və Aşıq" dastanı təşəkkül tapmışdır. Sarı Aşıq əsasən bayatıları ilə tanınır.  Bir sıra əsərlərdə Aşıq Qərib, Yetim, Qurbanəli, Abdulla, Nəbi adı ilə tanınan Sarı Aşığın əsl adı Sarı olmuş, Yaxşı adlı bir qıza aşiq olandan sonra “Aşiq” təxəllüsü ilə tanınmış, bayatı janrının incilərini yaratmışdır. Dünyanın ən nizamlı, ən kövrək, ən sərrast, ən ustad, fəlsəfi-idraki məzmunlu bayatıları məhz Sarı Aşığın adı ilə bağlıdır:

Mən Aşıq, tərsinə qoy,
Tər təni, tər sinə qoy,
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy!

Aşıq əsasən əxlaqi, mənəvi, ali eşq məsələlərinə toxunan bu bayatılarında cinaslardan çox ustalıqla istifadə etmişdir. Şeirlərində atalar sözlərini və məsəlləri tez-tez işlədən Sarı Aşıq çoxlu sayda sevgi şeirlərinin də müəllifidir. “Bayatılarımızın heyrət heykəli” (prof.Məhərrəm Qasımlı) olan Sarı Aşığın qəbrini 1993-cü ildə erməni vandalları tamamilə dağıtmışlar. Azərbaycan aşıq ədəbiyyatında qüdrətli söz sərrafı, bayatı ustası kimi adını tarixin yaddaşına yazan Sarı Aşıq o sənətkarlardandır ki, hər bayatısı söz xəzinəmizin qızıl kərpiclərindəndir və onun zəngin irsi ilə hər xalq, hər millət öyünə bilər.

XVIII əsrdə  “Qarabağ içrə bir şair Kəlimullah Musadır”. Bu misra M.P.Vaqifə məxsusdur. Məlumdur ki, Vaqif Qarabağa köçən zamana qədər Şuşa qalasında Musa Kəlimullah adlı məşhur  bir şair yaşayıb-yaradırmış. O da aydın olur ki, Musa Kəlimullah XVIII əsr Qarabağ-Şuşa poeziya məktəbinin ilk rüşeymini yaradanlardan

biri olmuş və bu məktəb sonralar inkişaf edərək özünün ən yüksək zirvəsinə qalxmışdır.

Şeirimizin fəxri Molla Pənah Vaqif (1717-1797) Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafına kömək etmiş qüdrətli bir sənətkar kimi Qarabağda-Şuşada ədəbi-poetik mühitin yaranması və inkişafında əvəzsiz xidmətləri olmuşdur. Yeri gəlmişkən, Qarabağda uzun müddət yaşamış Molla Vəli Vidadinin də Qarabağ-Şuşa ədəbi mühitinə böyük təsirini qeyd etmək vacibdir.

Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirin dövründə Şuşa qalası özünün parlaq çiçəklənmə, tərəqqi, mədəniyyət və intibah dövrünə başlamışdı. Şəhərdə əsas ictimai qüvvəyə çevrilmiş sənətkarlar ordusu əmələ gəlmiş, xalq təfəkkürünün ən gözəl abidələrini yaradan mahir söz, qələm, fırça ustaları, müxtəlif zövqlü zəka sahibləri, yaradıcı qüvvələr yetişmişdi.

Molla Pənah Vaqif yaradıcılığının bilavasitə təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realist satiranın Qasım bəy Zakir (1784-1857) kimi nümayəndəsi yetişərək uzun müddət poetik inkişafın istiqamətini müəyyənləşdirir. Lakin həm Zakirin öz yaradıcılığında, həm də onunla çağdaş olan şairlərin əsərlərində Füzuli ənənələrinin də yeni səviyyədə davam etdirildiyini görürük ki, bunun da ən böyük nümayəndələrindən biri Xurşidbanu Natəvandır (1830-1897).

Şuşada fəaliyyət göstərən "Məclisi-üns" poetik məclisinə Xurşidbanu Natəvan, "Məclisi-fəramuşan"a ("Unudulmuşlar məclisi") isə Mirzə Möhsün Nəvvab başçılıq edirdi. Ümumən, o dövrdə Azərbaycanda fəaliyyət göstərən ədəbi məclislər arasında sıx əlaqə mövcud idi və şairlər bir-biri ilə yazışırdılar. Bütövlükdə XIX yüzilliyin ədəbiyyatı Qarabağ ədəbi məktəbinin yeni mərhələyə – XX əsr ədəbiyyatına keçid üçün möhkəm zəmin hazırlamışdır.

M.F.Axundzadə ənənələrinin davamı ilə inkişaf edən maarifçi dramaturgiya Nəcəf bəy Vəzirovun (1854-1926) hələ XIX əsrin sonlarında qələmə aldığı komediyalar və "Müsibəti-Fəxrəddin" (1894) faciəsi, Əbdürrəhimbəy Haqverdiyevin (1870-1933) komediyaları və "Dağılan tifaq", "Bəxtsiz cavan" (1900), "Ağa Məhəmməd şah Qacar" (1907) faciələri ilə Azərbaycan ədəbiyyatı daha da zənginləşdi.

İlk Azərbaycan professional qadın aşığını da Qarabağ yetişdirmişdir. Aşıq Pəri şəxsiyyəti (XIX əsr) buna əyani sübutdur. Lakin artıq bu, yazılı ədəbiyyatla folklorun qovuşuğunun kamil bir mərhələsində baş vermişdir.

Qarabağ ədəbi mühitini o dövrdə bütün regiona yayılmış xalq ozan və nağılçıları, şair və aşıqları musiqi və şeir məclislərini hər yerdə yaradırdılar. Qeyd etdiyimiz kimi, "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinə Şuşada xan

qızı Xurşidbanu Natəvan və Mir Möhsün Nəvvab başçılıq edirdi. Bu məclislərdə 40-dək şair fəaliyyət göstərirdi. Onlar Gəncədə, Şamaxıda, Bakıda, Şəkidə olan ədəbi məclislərlə şeirləşir və Azərbaycanda vahid ədəbi bütövün yaranmasına nail olurdular.

Diqqət yetirin: M.P.Vaqif – ilk realist şeirin banisi; Qasım bəy Zakir – Azərbaycan satirasının bünövrə daşını qoyan bir sənətkar, Azərbaycanda maarifçi və tənqidi realizmin banilərindən biri; Xurşidbanu Natəvan – Məhsəti Gəncəvidən sonra Azərbaycanın ilk anadilli qüdrətli qadın şairi; Ə.Haqverdiyev –ədəbiyyatımızda tarixi dram janrının banisi, ilk opera rejissoru və dirijoru; Ü.Hacıbəyli – dahi bəstəkar, Şərqdə ilk operanın banisi, böyük dramaturq, ilk liberetto müəllifi, musiqili komediya janrının yaradıcısı, qəzetçi, qüdrətli publisist, Azərbaycan himninin müəllifi; Y.V.Çəmənzəminli – ilk tarixi romanlar müəllifi, yazıçı-etnoqraf, folklorşünas, diplomat; Ceyhun bəy Hacıbəyli – yazıçı, publisist, diplomat, folklorşünas (Parisdə ilk dəfə "Qarabağ folkloru" kitabını fransızca və orijinal mətnlərlə çap etdirmişdir); Əhməd bəy Ağayev – Azərbaycan dövlətçiliyinin ilk nəhəng, mogikan ideoloqlarından biri, yazıçı-publisist alim, qəzetçi, erməni terrorizminə qarşı döyüşən ilk türk "Difai" milli təşkilatının yaradıcısı; Firidun bəy Köçərli – ilk ədəbiyyat tarixçisi, maarifçisi, Qori və Qazax Müəllimlər Seminariyasının müdiri; Süleyman Sani Axundov – ilk uşaq ədəbiyyatının yaradıcılarından biri, "Laçın yuvası" dramında azəri mentalitetini bütövlüklə özündə cəmləyən ilk bəy obrazının yaradıcısı, yazıçı-pedaqoq, ilk "Qəhrəman yazıçı" adını alan ədib; Nəcəf bəy Vəzirov – görkəmli yazıçı-publisist, mühərrir, Şekspirin ("Otello") ilk tərcüməçisi, M.F.Axundov ənənəsinin layiqli davamçısı, ədəbiyyatımızda ilk faciə janrının, Azərbaycan teatrının (H.Zərdabi ilə birlikdə) banisi, ilk müəllim-aktyor. Bütün bu görkəmli söz sahibləri Qarabağ-Şuşa ədəbi mühitinin yetirmələridir.

Qarabağ övladı kimi dünyaya göz açan bu sənət xadimləri sonradan Azərbaycan mədəniyyətinin və ədəbiyyatının ədəbi fikir korifeylərinə çevrildilər və bütün türk xalqının övladları kimi dəyərləndirildilər.

XIX əsr Qarabağ ədəbi-mədəni həyatının mühüm özəlliklərindən biri də Şuşada təzkirə, müxtəlif səpkili şeir toplularının və salnamələrin yaranmasıdır. Belə ki, Mirzə Yusif Qarabağinin "Məcmueyi Vaqif və müasirini-digər", Mir Mehdi Xəzaninin "Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər - Xəyalat məcmuəsi", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği təzkirəsi", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" və digər elmi əsərlərin meydana gəlməsi poeziyanın öyrənilməsinə, müsiqişünaslığın, astrologiyanın tədqiqinə müəyyən imkanlar yaratmışdır. Bunların içərisində Mirzə Yusif Qarabağinin (1798-1864)

yazdığı “Məcmueyi Vaqif və müasirini-digər” adlı şeir toplusu tərtib orijinallığına görə diqqəti cəlb edir. 1856-cı ildə Teymurxanşurada (indiki Buynaksk) ərəb əlifbası, 1999-cu ildə Bakıda kiril əlifbası ilə nəşr olunan bu əsər bəzi tədqiqatlarda təzkirə kimi də qiymətləndirilmişdir.

“Məcmueyi Vaqif və müasirini-digər” əsərinə Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Aşıq Əli, Sabit Şəqaqi, Mehdi, Nişat, Mirzəcan bəy Mədətov, Cəfərqulu xan Nəva, Məhəmməd bəy, Əsəd bəy, Ağa Məsih Şirvani, Nabi Əfəndi, Ağa Bağır, Lütfi Şirvani, Sərşar, Mirzə Sadıq və Qasım bəy Zakirin şeirləri daxil edilmişdir.

Mir Mehdi Xəzaninin “Xəzani təxəllüslü Seyid Mir Mehdi ağanın və sair Qarabağ şairlərinin şeirlər – Xəyalat məcmuəsi” XIX əsrdə yaranmış poetik məcmuələr içərisində özünəməxsusluğu ilə seçilir. XVIII-XIX əsr Qarabağ şairlərinin əsərləri toplanmış bu məcmuədə Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Ələsgər Növrəs, Məhəmməd bəy Aşiq və digər şairlərin şeirlərindən seçmələr verilmişdir. Məcmuəyə Mir Mehdi Xəzani müxtəlif mövzularda qələmə aldığı qoşma, gəraylı, mənzum hekayə, məktub, həmçinin topladığı və özünün yazdığı bayatıların bir qismini daxil etmişdir. Məcmuə həmçinin Mir Mehdi Xəzaninin tərcümeyi-halının bəzi məqamlarına aydınlıq gətirməsi baxımından əhəmiyyətlidir.

Mir Möhsün Nəvvabın qələminə məxsus “Təzkireyi-Nəvvab” əsəri Azərbaycan ədəbiyyatı tarixinin ən mühüm qaynaqlarından biridir. Bu əsərdə Qarabağda yaşayıb-yaratmış şairlər haqqında məlumat və onların əsərlərindən nümunələr verilmişdir. Mir Möhsün Nəvvabın təzkirəsi 2 hissədən ibarətdir. Təzkirənin 1-ci hissəsinə əsərin yazıldığı dövrdə dünyasını dəyişmiş Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Kərbəlayi Səfi Valeh, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Aşıq Pəri, Abdulla bəy Asi, Mirzə Məhəmməd Katib, Molla Sədi və başqaları kimi Qarabağda yaşayıb-yaratmış otuz beş şair haqqında yığcam məlumat və əsərlərindən nümunələr verilmişdir.

Təzkirənin 2-ci hissəsində isə əsərin yarandığı dövrdə yaşayıb-yaradan Qarabağ şairlərindən bəhs olunmuşdur. Buraya əlli altı şairin yaradıcılıq irsindən nümunələr daxil edilmişdir ki, onların içərisində Xurşidbanu Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanım Kəminə, Mirzə Növrəs, Mir Möhsün Nəvvab, Mir Mehdi Xəzani, Məşədi Cəfər Qarabaği, Mirzə Hüseyn Çakər, Məşədi Məhəmməd Bülbül, Baxış bəy Səbur, Mirzə Əli Aşiq, Molla İbrahim, Həsən Lələ, Məmo bəy Məmai və başqa şairlərin yaradıcılıq irsi xüsusi yer tutur.

İstedadlı şair və ədəbiyyatşünas Məhəmmədağa Müctəhidzadənin (1867-1958) “Riyazül-aşiqin” təzkirəsi də XIX əsrin sonlarında Qarabağ ədəbi mühitində yaranmış, lakin əsər 1910-cu ildə İstanbulda nəşr olunmuşdur. XIX əsrdə yaranan bir

sıra digər təzkirələr kimi bu əsər də 2 hissədən ibarətdir. I hissədə təzkirənin yarandığı dövrdə dünyasını dəyişmiş şairlərin yaradıcılığından bəhs olunmuşdur. II hissədə isə, əsərin yarandığı dövrdə həyatda olan şairlərin yaradıcılığı təqdim edilmişdir. “Riyazül-aşiqin” təzkirəsində Qarabağda yaşayıb-yaratmış yetmiş doqquz şairin qısa bioqrafiyası və əsərlərindən nümunələr verilmişdir.

İlk dəfə Qarabağ xanlığının tarixini yazanlar da Şuşa tarixçi-səlnaməçi ziyalıları olmuşdur. Qeyd etdiyimiz kimi, ilk Qarabağ-Aran-Alban tarixini yazan tarixçi Musa Kalankatuklu (VII əsr) olmuşdur.

Lakin, sırf Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni tarixini öyrənmək üçün Mirzə Adıgözəl bəyin “Qarabağnamə”, Mirzə Camal bəy Cavanşir Qarabağinin “Qarabağ tarixi”, Əhməd bəy Cavanşirin “1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair”, Mirzə Yusif Qarabağinin “Tarixi-safi” (“Əsl tarix” – Q.B. ), Mir Mehdi Xəzaninin “Kitabi-tarixi-Qarabağ”, Rzaqulu bəy Mirzə Camal oğlunun “Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri”, Mirzə Rəhim Fənanın “Tarixi-cədidi-Qarabağ”, M.Baharlının “Əhvalati-Qarabağ”, Həsən İxfa Əlizadənin “Şuşa şəhərinin tarixi”, Həsənəli xan Qaradağinin “Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları” və həmçinin, Abbasqulu ağa Bakıxanovun “Gülüstani-İrəm” əsərləri olduqca qiymətli və əvəzsiz tarixi əsərlər, mənbə və məxəzlərdir.

Bir cəhəti də qeyd edək ki, Qarabağ-Şuşa mövzusu görkəmli sənət adamlarını həmişə düşündürmüş və bu mövzuda dəyərli bədii əsərlər qələmə alınmışdır. Konkret nümunələrə gəlincə, S.S.Axundovun “Laçın yuvası” pyesi, Əyyub Abbasovun “Zəngəzur” romanı, İlyas Əfəndiyevin “Mahnı dağlarda qaldı”, “Xürşudbanu Natəvan” pyesləri, Bayram Bayramovun “Cıdır düzü”, “Karvan yolu” romanları, Sabir Əhmədlinin Qarabağ trilogiyası (“Axirət sevdası”, “Kef”, “Ömür urası”), Aqil Abbasın “Çadırlarda Üzeyir bəy doğulmur”, “Dolu” romanları, Elçin Əfəndiyevin bu mövzudakı çox dəyərli hekayələri, Elçin Hüseynbəylinin “Əsrlər” povesti, Şərif Ağayarın “Kərpickəsən kişinin dastanı” povesti, Hüseynbala Mirələmovun “Xəcalət” romanı, Hikmət Sabiroğlunun “Qarabağ gündəliyi” və s. bu qəbildən olan əsərlər hələki ən parlaq nümunələr sayıla bilər.

Poeziyaya gəldikdə isə, elə bir şairimiz yoxdur ki, böyük Səməd Vurğunun “Şuşa” şeiri ilə başlanan bu ənənəni davam etdirməsin, Qarabağ hadisələrinə, Qarabağın zümrüd tacı Şuşaya şeir, poema həsr etməsin. Bütün bu əsərlərdə Qarabağa böyük, vətənpərvər məhəbbət, Şuşa mühitinə ülvi bir münasibət, gələcəyə hədsiz inam hiss olunur.

Rəsul Rza hələ ötən əsrdə “Şuşam mənim” adlı şeirində şəhərin gözəlliyini tərənnüm etmiş və bu gözəlliyə göz dikənlərə demişdi:

Sinəsi qabarıq nağıllardan gəlmiş,
Pəhləvandır Şuşam mənim!
Mərdliklə, gözəlliklə qoşam mənim.
Yüz bir şəhər adı çəkim
Gözəllikdə sənə tay olarmı?!
Vətən adlı doğma yurddan
Püşk olarmı, pay olarmı?!

9 aprel 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı “Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında” Sərəncam bir daha ermənilərin simasızlığını, təcavüzkarlğlını bütün dünyaya bəyan etdi və bizlərə imkan verdi ki, bu cür elmi, ədəbi məclislərdə, tədqiqlərdə bir daha Şuşalı günlərimizi xatırlayaq, qatı düşmənin xislətini dərk edərək, gənclərimizə gələcək qələbələrə inam təlqin edək.

Bu yerdə Ümummilli liderimizin o möhtəşəm kəlamına qayıdıram: “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!”

Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevin tarixi qələbə çağırışı bu arzularımızı həqiqətə çevirdi: “Şuşa bizimdir! Biz qayıtdıq! Şuşanı dirçəldəcəyik! Şuşa Azərbaycan mədəniyyətinin paytaxtıdır! Qarabağ Azərbaycandır!”.

Tarixi zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şuşaya səfəri “ruhun bədənə daxil olması” müqəddəsliyinin hadisəsi idi. Müstəqillik tariximizdə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti müqəddəs şəhərimiz Şuşaya daxil oldu. İllərin həsrəti, intizarı, iztirabları, məşəqqəti bitdi. Bu qədim şəhərin 28 ildən sonra – 2020-ci ilin 8 noyabr günü Azərbaycan Ordusunun Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, hünəri, əsgər və zabitlərimizin rəşadəti sayəsində düşməndən geri alınması millətimizin ən böyük bayramına çevrildi, sızıldayan yaralara məlhəm oldu. Şuşa – Qarabağ həsrətimizə son qoyuldu, müdrik rəhbərimizin Şuşanı “Azərbaycan mədəniyyətinin paytaxtı” elan etməsi tarixi həqiqətin müdrikcəsinə dərkindən irəli gəlir.

Yaddaşımızda bir çox milli dəyərimizi rəmzləşdirən Şuşa həm də milli birliyimizin, həmrəyliyimizin, Azərbaycanlı olmaq qürurumuzun, Vətənə sevgimizin nümunəsidir. Milli qürur bayrağımızın daşıyıcısı olan rəhbərimizin Şuşa səfəri –

Şuşaya aparan yol qürurlu keçmişimizdən qürurlu gələcəyimizə aparan vüsal yolu, dirçəliş yolu, azadlıq yolu oldu. Bu yol heykəlləşən dahilərimizin qayıdış yolu, şərəf və ləyaqət yolu oldu!

Şuşanın azad edilməsi Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun nail olduğu çox mükəmməl qələbədir. Bəlkə də hadisələrin bilavasitə içində olduğumuzdan bu qələbənin mahiyyətini hələ tam dərinliyi ilə dərk edə bilmirik. Amma illər, əsrlər ötəcək, gələcək nəsillər Şuşa qələbəsi ilə, bu Vətən müharibəsindəki Zəfərimizlə həmişə qürur duyacaq, Vətən torpağının müqəddəsliyini dərk edib, bu qələbədən ürəklər riqqətə gələcək. Bu qələbənin heyrətamiz təcrübəsi dünyanın ən məşhur hərbçilərinə, sərkərdələrinə örnək olacaq. Onun qürur işığında qəhrəman övladlarımız yetişəcək. Bu işığın, bu nurun şəfəqləri altında Qarabağ ədəbi-mədəni mühitinin lacivərd üfüqlərindən yeni-yeni ədəbiyyat və mədəniyyət dahiləri boy qaldıracaq, Azərbaycana mədəniyyət şəfəqləri yayacaqlar.

Bu müqəddəs çağırışa qoşulan yazıçılarımızın, şairlərimizin, mədəniyyət xadimlərimizin ilhamlı fəaliyyətləri sayəsində Qafqazın konservatoriyası sayılan Qarabağın böyük mənalı, milli ruhlu ədəbiyyatı yaranmaqda davam edəcəkdir. Bu ədəbiyyatın keşiyində duran ədəbiyyat və mədəniyyət xadimləri siyasi cəhətdən kamil, ədəbi-mənəvi baxımdan xalqına, torpağına, millətinə son dərəcə bağlı insanlardır. Əminliklə demək olar ki, onların hər biri Qarabağa qayıdış ədəbiyyatının yaradılmasında müstəsna rol oynayacaqlar.